Yeni Təfəkkür



3 sentyabr / 2021

# Ələmin ruhu - Vətən göylərində dalğalanan ələm

*Atlıxan əminin oğlu Babək Hacıyevin maşını ilə gedib şəhid Ceyhun Adıgözəlovun valideynləri ilə görüşdükdən sonra şəhid Ələm Hüseynovun valideynləri ilə də gedib görüşdük. Bizi evdə şəhidin atası Sərvər kişi, anası Bəsirə xanım, qardaşı Sədafər qarşıladılar. Azadkənd kəndində 1993-2004-cü illər ərzində müəllim işlədiyimdən və camaatın xeyir-şərində iştirak etdiyimdən, bu ailə də məni doğmalıqla dindirdi. Hətta Ələmin anası Bəsirə Bəxtiyar qızı bir məqamı da xatırlatdı, mənə dedi ki, sən 2003-cü ildə yay vaxtı idi, bizə gəlmişdin. Ələmin doğum haqqında şəhadətnaməsinə baxdın, dedin ki, məktəb yaşı çoxdan çatıbdı. Bu il birinci sinfə getməlidir. Sonra da qayıdıb bizə Ələm adının mənasını izah etdin. Dedin ki, bu sözün bir mənası da bayraq deməkdir.*



Şəhid anasının bu xatırlatması məni də daxilən kövrəltdi. Bəli, Ələm sözünün bir mənası "Ələm gəzdirmək" ifadəsində daşlaşıb qalıb, mənası bayraq deməkdir. Qəm-qüssə, dərd-kədər mənası da var ələm sözünün. Çox vaxt dinlə də əlaqələndirirlər bu sözü. Ad ilə tale arasında hardasa bir ilahi bağlılıq da var ki, onu insan idrakı tamlığı ilə dərk edə bilməz. Ancaq rəmzi, üstüörtülü işarələr - sətiraltı deyimlər, ifadələr var bu haqda. "O nədi ki, göydən düşdü yapışdı" şəklində bir tapmacamızda da bu məqama üstüörtülü eyham var. "Göydən düşdü, yapışdı" tapmacasının cavabı "Adam adı"dır. Yəni xalq intuitiv olaraq dərk edir ki, adamın adı "göydən düşür" - yəni ilahi məkanı olan göydən Allah-təala tərəfindən bəxti-taleyi ilə yanaşı adı da göndərilir insanın. "Göydən düşən" ad insanın başqalarından seçilib - fərqləndirilməsi üçün qoyulduğu kimi, həm də o ada müvafiq olaraq o şəxsin özünə-adına uyğun bəxt-tale yazısı da yazılmış olur. Ona görə də "göydən düşdü" ifadəsindən sonra "yapışdı" sözü də işlənilir ki, bu ad adama ömürlük yapışır, insanla onun adı ömürlük qoşa çəkilir və hətta ölümündən sonra da insan həmin adla anılır və yaşayır.

3 yanvar 1996-cı ildə Saatlı rayonunun Azadkənd kəndində anadan olan Ələm Sərvər oğlu Hüseynov 2003-2014-cü illərdə kəndlərindəki orta məktəbdə oxudu. 2015-ci ilin iyulundan 2017-ci ilin yanvarınadək Qazax ərazisində sərhədçi kimi həqiqi hərbi xidmətdə oldu. Əsgərlikdən gələndən sonra ata-anasına, özündən böyük qardaşı Sədafərə təsərrüfat işlərində kömək etməyə başladı. Özünün gözaltı elədiyi bir qızla nişanlandı da. 2 il yarımacan nişanlı qaldı. 2020-ci ilin noyabr ayında toyu olacağını planlaşdırmışdılar. Lakin "sən saydığını say, gör fələk nə sayır" ifadəsini babalarımız nahaq işlətməyiblərmiş. Bu dəfə də bəndənin "saydığı" - hesabladığı yox, fələyin saydığı-hesablaşdırdığı oldu. Ona görə də "fələyin işindən baş açmaq olmur" da deyib babalarımız. Fələyin amansız işləkləri çalın-çarpaz dağlar çəkdirir adama...

2020-ci ilin 27 sentyabrında başlanan 2-ci Qarabağ savaşı bütün planları yarıda qoydu. Öncə vətənin çağırışına səs verib, sonra şəxsi taleyi barədə düşünməyə qərar verən Ələm Hüseynov qanlı döyüşlərə yollandı. Qumbaraatan əsgər kimi Cəbrayıl, Zəngilan, Qubadlı istiqamətlərində gedən döyüşlərdə düşmənin xeyli canlı qüvvəsini məhv etdi.

Lakin qanlı-qadalı döyüşlərin getdiyi vaxtların birində Ələm özü də yağı düşmənin hədəfinə tuş gəldi. Oktyabrın 30-da Qubadlıda - Gorus dağında qəhrəmancasına şəhid oldu. Ələmin mübarək şəhid nəşini çox-çox sonralar - 2021-ci ilin 16 yanvarında gətirib doğulduğu Azadkənd kəndindəki qəbiristanlıqda torpağa tapşırdılar. Cismi torpağa gömüldüsə də, ruhu vətən göylərində əbədi dalğalanan ələmə-bayrağa döndü Ələmin.

Cismani yoxluğu ilə doğmalarına, anasına, nişanlısına ələm, qəmqüssə, kədər gətirdi, amma mənəvi olaraq Ələm bir ələm kimi vətən göylərində dalğalanaraq özünə əbədiyaşarlıq haqqı qazandırdı. Ələm Sərvər oğlu Hüseynovun vətən uğrundakı şücaətləri dövlətimiz tərəfindən də "Vətən uğrunda", Cəbrayılın, Zəngilanın, Qubadlının alınması uğrunda medalları ilə təltif olunub, yüksək qiymətləndirilmişdir.

Şakir Albalıyev